**Beynəlxalq Əmək Təşkilatı tərəfindən Cenevrə şəhərində təşkil olunan Əmək Statistiklərinin 19-cu Beynəlxalq konfransının nəticələri haqqında**




Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nümayəndələri Əmək statistikası şöbəsinin müdiri Natella Quliyeva və şöbənin aparıcı məsləhətçisi Afaq Babayeva 2013-cü ilin oktyabr ayının 2-dən 11-nə kimi Cenevrə şəhərində Əmək Statistiklərinin 19-cu Beynəlxalq konfransında iştirak etmişlər. Konfrans BƏT-nin Baş direktoru Q. Rayderin çıxışı ilə başlanmış və o öz çıxışında bütün iştirakçıları əmək statistiklərinin 90 illik konfransı münasibətilə təbrik etmişdir. Bu konfransda BƏT, BMT-nın Avropa Komissiyası, Avrostat, BMT-nın Ərzaq və Kənd təsərrüfatı Təşkilatı, BMT-nin Uşaq Fondu, Afrika İnkişaf Bankı, Dünya Bankı, Beynəlxalq Turizm Təşkilatı və digər təşkilatların, həmçinin 106 ölkənin nümayəndələri iştirak etmişdir. Konfransın işi 11 plenar iclasdan və Komitənin əmək fəaliyyətinin statistikası haqqında Qətnamənin layihəsi işindən ibarət olmuşdur.

Plenar iclasda Məşğulluq üzrə Beynəlxalq Təsnifata (ISCO-08) baxış; Uşaq əməyi statistikası; Məcburi əmək statistikası və insan alveri; Layiqli əmək statistikası; Yaşıl iş yerləri statistikası; Birliklər (kooperativlər) üzrə statistika; Əmək haqqı statistikası; İstehsal sahəsində gender amilləri; Qeyri-rəsmi məşğulluq və qeyri-rəsmi sektor; Sosial dialoq statistikası; Əməkçi miqrantların statistikası; İstehsalatda zorakılıq statistikası; BƏT-in göstəricilər bazası; Minilliyin İnkişaf Məqsədləri və 2015-ci ildən sonrakı inkişaf proqramı; Məşğulluq statusu üzrə Beynəlxalq təsnifata (ICSE-93) baxış; Əmək statistikləri Komitəsinin işinə dair məruzə layihəsi müzakirə olunmuşdur.

Əmək statistikləri Komitəsinin işinə dair məruzə layihəsi sonuncu plenar iclasda müzakirə olundu. Müzakirənin əsas sualı plenar iclasdan əlavə əmək statistiklərinin Komitəsi tərəfindən işlənmiş Əmək fəaliyyəti haqqında Qətnamə idi.

Qətnamənin layihəsi 12 hissədən ibarət olmuşdur.